# Maqsud İbrahimbəyov

# ƏYYAŞ KİRPİ

Tərcüməçi: Əyyub Qiyas

Qışda kirpilər yuxuya gedir. Bütün zoologiya kitabları bunu təsdiq edir. Zənnimcə, kirpilərlə bağlı nəzəriyyə, doğrudan da, belədir. Lakin başqa bir nəzəriyyə də var və o, sırf bizdə yaşayan kirpiyə aiddir. Yəqin, bu kirpi mənim əlimə keçən dərsliklərdə yazılanları oxumadığı üçün heç nə olmamış kimi qış uzunu ora-bura qaçır.

Bu kirpi çoxdan bizimlə qalır. Yaxşı xatırlayıram, onun bizdə qalması üçün evdəkiləri razı salana qədər xeyli əziyyət çəkdim. Nədənsə ümumi mənzilimizdə yaşayan sakinlərin hamısı onun bizdə qalmasına narazı idilər. Müxtəlif bəhanələr gətirir, məni inandırmağa çalışırdılar ki, kommunal mənzildə kirpi saxlamaq olmaz. Qonşulardan biri çox primitiv misal çəkdi, guya tanışlarından birinin kirpisi bilmədən sobaya düşüb, sonradan həmin adamlar buna görə nə qədər ağlayıb, dərd ediblər. Dedi ki, bu həmin adamlar bütün ömür boyu o dəhşətli hadisəni unuda bilməyiblər.

Qonşulara evi soba ilə qızdırmadığımızı xatırlatdım, amma bu onlara çox da təsir eləmədi. Dedim, o özünü yandırmaq üçün qaynar suya atılmalıdır və bu kirpi ümumiyyətlə belə şeyi bacarmaz.

Amma, deyəsən, kirpilərin ilan tutmağı, harada məskunlaşmasından asılı olmayaraq ilanlara qənim kəsilməyini xatırlatmağım onların ağlına batdı.

Elə bilirdim bu, çox da inandırıcı səbəb olmayacaq, ona görə də bunu çarəsizlikdən, elə-belə demişdim, çünki kirpilərlə bağlı fikirlərimi sona çatdırmaq istəyirdim. Amma bu fakt onlara yaxşı təsir etdi. Bir-birlərinə baxdılar və sonra belə bir kirpinin ümumi mənzildə yaşamasına razılıq verdilər.

Beləcə, kirpi bizimlə yaşamağa başladı. Tədricən Tuzikdən başqa hamı ilə münasibəti yoluna düşdü.

Tuzik təzə sakini qəbul etmək istəmirdi.

Hərdən mətbəxdə ət tikələri üstündə didişirdilər, lakin bu toqquşmadan ancaq Tuzikin burnu zərər görürdü və məhz buna görə də onun kirpiyə olan qəzəbi səngimirdi.

Yeri gəlmişkən, bir az da Tuzikdən danışım. Bəzi paxıl adamlar deyir ki, o özünü əsl cins it kimi aparmasına baxmayaraq, adi küçə itidir.

Tuzikin küçüklük mərhələsi arxada qalıb, artıq onda it şüurunun formalaşması dövrü başlayıb. Bu dövrdə küçük əmin olur ki, ətrafındakı insanlar vaxtlarını it üçün özlərinə uyğun şəraiti yaratmağa sərf edirlər.

Bəzən mənə elə gəlir ki, Tuzik bazar günləri bizim işə gedib pul qazanmaq əvəzinə, tənbəl kimi evdə oturmağımızdan narazıdır. Bilirəm, Tuzik ev sahibi anlayışını dərk etmir, ancaq mənə elə gəlir ki, bu it özünü əsl ev sahibi kimi aparır.

Bu səbəbdən Tuzikin yeni sakinə qəddarlıqla nifrət etməsinin səbəbini anlayıram. İlk vaxtlar

kirpini görən kimi üstünə cumurdu. Yazıq kirpi açıqlığa çıxmağına peşman olurdu. Bu narazılığın nəticəsi də ağır olurdu. İtin zingiltisi konfet yedizdirəndən və qulaqlarının arxasını qaşıyandan sonra kəsilirdi.

Tədricən Tuzik taktikanı dəyişdi. O, pusquda dayanır və qəflətən hürərək kirpinin üstünə atılırdı. Amma nə olsun, qəflətən hücum etsə də, kirpini tuta bilmirdi. Kirpi əvvəllər titrəyirdi, amma sonra Tuzikin hərəkətlərinə əhəmiyyət vermədi və hətta bükülüb özünü yumağa da çevirmirdi. Çünki onsuz da tikanları onu çox yaxşı qoruyurdu.

Tədricən səbirli kirpi bu dava-dalaşdan ləzzət almağa başladı. İndi Tuziki yedirtmək vaxtı gələndə kimsə mütləq onun yemək qabının yanında dayanmalı və kirpini qəzəblə zingildəyən itin yanından qovmalı idi.

Artıq mənzildə vəziyyət nəzarətdən çıxmışdı, başqa sözlə, evdə iki müxalif partiya yaranmışdı: müxalifətin həqarətlə adlandırdığı "itsaxlayanlar" və kirpinin tərəfini tutub digər partiya ilə rəqabət aparan "tikanlılar" partiyası.

Hər gün nəsə baş verirdi və əgər qonşulardan birinin ad günü məclisi olmasaydı, yəqin, bu məsələ məhəllə sovetinə qədər gedib çıxacaqdı. Bu qonşu "tikanlılar" partiyası üzvü idi (başqa münasib ad tapa bilmədiyim üçün bu partiyanı belə adlandırıram) və kirpi fəxri qonaq kimi məclisə dəvət olunmuşdu.

Sən demə, əməlli-başlı sərxoş olmuş ev sahibi qonaqların əylənməsi üçün kirpinin yemək qabına şirin şərab tökübmüş və kirpi də qabdakı şərabı son damcısına qədər içmişdi. Bundan sonra həm ev sahibinin, həm də kirpinin kefi kökəlib. Dəqiq bilmirəm, daha neçə qab dolub-boşalıb, ancaq bir vaxt gördük ki, kirpi əvvəlki kirpi deyildi.

Kirpi əvvəlkindən fərqli olaraq səndələyərək gedir, başını tikanların arasından çıxarıb aşağıdan yuxarı məclisdəkilərə baxırdı.

Görkəmindən bəlli idi ki, oxumaq istəyir, özü də vaxt itirmədən, bütün istedadını nümayiş etdirmək niyyətindədir.

Bilmirəm, qəfildən dayandığı yerdə aşıb ağır, dərin yuxuya getməsəydi, onun oxumaq həvəsinin axırı necə olacaqdı. Amma həmişəki kimi yumağa dönüb yatmadı. Ayaqlarını, pəncələrini yana açıb arxası üstə uzanmışdı, yumşaq, çəhrayı qarnı astaca qalxıb-enirdi. Sanki demək istəyirdi: "Həyat çox qısadır və nə qədər ki fürsət var, ondan istifadə etmək lazımdır". Kirpi sifətində qəribə təbəssümlə, şirin-şirin yatırdı və hətta arada astadan xoruldayırdı da.

Elə bu vaxt Tuzik peyda oldu. Mənə elə gəldi ki, hətta o da ilk baxışdan gördüklərinə inanmadı. Hər halda, bir müddət kandarda quruyub qaldı. Sonra sevincək yerindən götürülüb kirpinin üstünə cumdu. Tuzik ağzını geniş açıb döşəmə üstə köməksiz uzanan əyyaşın başının üstünü kəsdirəndə heç kəs yerindən tərpənməyə macal tapmadı. Bir an sonra...

Tuzik nifrətlə fınxırdı, sonra kirpini bir də iylədi və növbəti dəfə fınxırdı. Üz-gözündən qəzəb yağırdı.

Sonra pəncəsi ilə kirpini vurdu və özünü sındırmamaq üçün təkəbbürlə çevrilib getdi.

O vaxtdan bəri evdə sülh və əmin-amanlıq bərqərar oldu. Tuzik kirpiyə qətiyyən əhəmiyyət vermirdi, elə ki kirpi ona tərəf gəlirdi, o çıxıb gedir, özünü elə aparırdı ki, guya bu əyyaşı görmür.

Beləcə, artıq fikir ayrılığı olmadığı üçün mənzildəki müxalif partiyalar ləğv edildi. Bir dəfə qonşulardan biri azca içkili vəziyyətdə evə gəlib təsadüfən ayağı ilə kirpiyə toxunanda Tuzik qəzəblə ona hürdü, o gecə sərxoş kirpiyə baxdığı kimi qonşuya baxdı.

Dünən özüm gördüm, Tuziklə kirpi yanaşı oturub səbirlə qonşulardan birinin ətçəkən maşının dəstəyini fırlatmasına baxırdı. Qonşu arada onlara bir parça ət atır, onlar da bir-birinin yanından ayrılmadan hər biri ləzzətlə öz payını yeyirdi.